“İNVEST-AZ İnvestisiya Şirkəti” QSC tərəfindən
Marja ticarəti xidmətinin təqdim edilməsinə dair
(fiziki şəxslər üçün)

# ÜMUMİ OFERTA

10.07.2023-cü il
Bakı şəhəri

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının qanunvericiliyinə və Nizamnaməyə əsasən fəaliyyət göstərən "İNVEST-AZ İnvestisiya Şirkəti" QSC, (lisenziya № 087986, 09.01.2016) VÖEN: 1800354501, hüquqi ünvanı Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu ŞTQ, Komsomol küç., ev 1, bundan sonra **"İnvestisiya Şirkəti"** olaraq adlandırılacaq, özünü bu sənəddə göstərilən şərtlərlə təklifə, bundan sonra Oferta adlandırılacaq, razılıq verən (aksept edən) və bu Ofertanın1.2-ci bəndində göstərilən meyarlara cavab verən istənilən şəxslə, bundan sonra birlikdə - **"Müştəri"**və **"Müştərilər"** adlandırılacaq, Ofertada nəzərdə tutulmuş qaydada və müddətdə marja ticarəti xidmətinin təqdim edilməsinə dair müqavilə bağlamış hesab edir;

1.2. Bu Ofertanın məqsədləri üçün Müştəri, 18 yaşına çatmış və qanunla hesab açması bu və ya digər şəkildə qadağan edilməyən istənilən fiziki şəxs və / və ya fərdi sahibkar hesab edilir;

1.3. Bu Ofertanın mətninin İnvestisiya Şirkətinin rəsmi İnternet səhifəsində: (bundan sonra İnvestisiya Şirkətinin rəsmi səhifəsi) yerləşdirilməsi ilə yayılması Müştərilər üçün marja ticarəti xidmətinin göstərilməsi üçün təklifin (oferta) verilməsi hesab edilir;

1.4. Bu Oferta İnvestisiya Şirkəti tərəfindən Müştərilərə İnvestisiya Şirkətinin öz adından, lakin Müştərinin hesabına, bu Ofertada nəzərdə tutulmuş marja ticarəti xidmətinin və yardımçı investisiya xidmətlərinin təqdim edilməsi ilə bağlı əməliyyatların aparılması qaydaları və şərtlərini müəyyən edir;

1.5. Bu Oferta istənilən vaxt İnvestisiya Şirkətinin rəsmi səhifəsində rəy yerləşdirməklə İnvestisiya Şirkətinin qərarı ilə geri götürülə bilər;

1.6. Bu Oferataya əlavə və dəyişikliklərin edilməsi dərc edilmiş Ofertanın geri götürülməsi və bu Oferta ilə müəyyən edilmiş qaydada yeni nəşrdə dərc edilməsi yolu ilə həyata keçirilir;

1.7. Qiymətli kağızlar və maliyyə alətləri üzrə verilən sifarişlərin icrası zamanı baş vermiş texniki nasazlıq, habelə maliyyə alətləri üzrə hər hansı səbəbdən qiymətlərin səhv ötürülməsi və ya üçüncü şəxslərin əməliyyat səhvi nəticəsində müştəri aktivlərində baş vermiş dəyişikliklər İnvestisiya Şirkəti tərəfindən ilkin vəziyyətə qaytarılır (restitusiya edilir). Müştəri hesabında yaranmış nəticələr bu nasazlıq və ya səhv aradan qaldırılanadək İnvestisiya Şirkəti tərəfindən girovda saxlanılır;

1.8. Müştəri sifarişlərinin icrası bazarda müvafiq qiymət və tələb-təklifinformalaşmasından asılıdır. Belə ki, Müştəri tərəfindən sifarişin verilməsi heç bir halda əqdin baş tutması üçün müstəsna şərt hesab edilmir.

## 2. İstifadə edilmiş terminlər və anlayışlar

2.1. *İnvestisiya şirkətinin rəsmi internet səhifəsi* – www.investaz.az;

2.2. *Müqavilə* - bu Oferta ilə nəzərdə tutulmuş qaydada İnvestisiya Şirkəti və Müştəri arasında bağlanmış marja ticarəti xidmətinin təqdim edilməsinə dair müqavilə;

2.3. *Eyniləşdirmə nömrəsi* – İnvestisiya Şirkəti tərəfindən öz daxili uçot sistemində Müştərini identifikasiya edən unikal kod;

2.4. *Xidmət yeri* - İnvestisiya Şirkətinin fəaliyyət göstərdiyi və Bakı şəhərində yerləşən faktiki ünvanı;

2.5. *Maliyyə bazarlarına nəzarət edən qurum* – Azərbaycan Respublikasının Mərkəzi Bankı (AZ1014, Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç. 90.);

2.6. *ƏL/TMM Qanunu* – "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu;

2.7. *Ərizə-anket* - Müştəri tərəfindən bu Ofertanın 1 saylı əlavəsinə uyğun olaraqtərtib edilmiş, bu Ofertaya qoşulmaq üçün təqdim edilmişərizə (ofertanın aksepti);

2.8. *Müştəri məlumatları* – müştəri tərəfindən təqdim edilən ərizə-anketdə əks olunmuş ilkin məlumatlar və ya sonradan investor otağı vasitəsilə təqdim edilmiş və ya dəyişdirilmiş məlumatlar.

2.9. *Əsas valyuta* – Müştəri hesabının ifadə olunduğu, o cümlədən mədaxil-məxaric əməliyyatlarının icra olunduğu valyutadır;

2.10. *Tariflər* – İnvestisiya Şirkəti tərəfindən xidmətin göstərilməsi üçün müəyyən edilmiş xidmət haqqıdır. Tariflər İnvestisiya Şirkətinin rəsmi səhifəsində (https://www.investaz.az) yerləşdirilmişdir;

2.11. *Əlavə xərclər* – Müştəriyə münasibətdə tətbiq edilən, bu Ofertanın şərtlərinin təmin edilməsi və xidmətlərin yerinə yetirilməsi üçün İnvestisiya Şirkətinə ödənilən komissiya, rüsum, faiz və digər çəkilən xərclərdir;

2.12. *Müştəri aktivləri* – Müştəriyə məxsus olan və İnvestisiya Şirkətinin daxili uçot sistemində qeydiyyata alınan qiymətli kağızlar, törəmə maliyyə alətləri və/və ya pul vəsaitləri;

2.13. *Şəxsi hesab* – İnvestisiya Şirkəti tərəfindən xidmətlərin təqdim edilməsi məqsədi ilə müştərilərə açılmış və investor otağı vasitəsi ilə təqdim edilən hesab;

2.14. *İnvestor otağı* – İnvestisiya Şirkəti tərəfindən müştərinin İnvestisiya Şirkəti nəzdnində hesablarını idarə etməsi və digər xidmətlərindən elektron qaydada istifadə imkanı verən (xidmətin elektron formatda göstərilməsi təmin edildikdə), Müştərinin adına İnvestisiya Şirkətinə məxsus elektron resurslarda yaradılmış xüsusi rəqəmsal mühit;

2.15. *Ticarət hesabı* – Müştərinin elektron ticarət platformasında olan hesabıdır;

2.16. *Ticarət platforması* – İnvestisiya Şirkəti tərəfindən təqdim edilən və fərq müqavilələri ilə marja ticarətinin təşkil edilməsi məqsədi ilə istifadə edilən elektron ticarət platformasıdır. Ticarət platforması İnvestisiya Şirkətinin rəsmi səhifəsində yerləşdirilir (https://www.investaz.az/metatrader-4). Ticarət platformasından istifadə qaydaları iləşirkətin rəsmi internet səhifəsində (https://www.investaz.az/metatrader-4/istifade-telimati) tanış olmaq olar.

2.17. *Səlahiyyətli şəxs* - Müştərinin adından Müqavilədə nəzərdə tutulmuş hərəkətləri yerinə yetirmək səlahiyyətinə lazımi qaydada rəsmiləşdirilmiş etibarnamələr əsasında malik olan şəxs;

2.18. *Mövqe* – Müştərinin maliyyə aləti üzrə götürdüyü risk;

2.18.1. Uzun mövqe – Müştərinin icra olunmuş alış sifarişi üzrə götürdüyü risk;

2.18.2. Qısa mövqe – Müştərinin icra olunmuş satış sifarişi üzrə götürdüyü risk;

2.19. *Açıq mövqe* – bu Oferta çərçivəsində ticarət platformasında qeydə alınmış, maliyyə aləti üzrə uzun və ya qısa mövqelər yaratmış, lakin bağlanılmamış, cari alış və ya satış qiymətləri ilə ifadə olunanticarət əməliyyatı;

2.20. *Bağlı mövqe* – Müştərinin hesabında (hesablarında) başa çatmış (hesablaşması tamamlanmış) ticarət əməliyyatı;

2.21. *Ticarət əməliyyatı* – maliyyə aləti üzrə uzun və ya qısa mövqelər açmaq üçün icra olunmuş sifariş;

2.22. *Əks mövqe ticarət əməliyyatı* – eyni maliyyə aləti üzrə Müştərinin sahib olduğu mövqeyə əks mövqedə olan icra olunmuş sifariş;

2.23. *Lot* – bir sifarişdə göstərilə bilən qiymətli kağız və ya törəmə maliyyə alətlərinin standart ölçü vahidi;

2.24. *Balans (balance)* – Müştərinin bağlı mövqeləri və ticarət hesabına etdiyi mədaxil və məxaricləri üzrəəsas valyutada ifadə olunmuş nəticə;

2.25. *Kapital (Equity)* – Müştərinin balansı və cari açıq mövqelərinin əsas valyutada ifadə olunmuş nəticələrinin cəmi;

2.26. *Sərbəst təminat marjası (Free Margin)* – Müştərinin ticarət hesabındakı kapitalının sifarişlər üzrə tələb olunan təminat məbləği ilə fərqidir;

2.27. *Təminat Marjası (Margin)* – marja ticarəti üzrə əməliyyatların davamlılığını təmin etmək məqsədi ilə Müştəri hesabında saxlanılmalı olan pul vəsaitinin minimum məbləğidir;

2.28. *Marja səviyyəsi* – fərq müqavilələri ilə marja ticarəti üzrə müştərinin pul vəsaitinin açılmış mövqe üzrə hesablanmış ilkin marjaya nisbətinin faizlə ifadəsi;

2.29. *Cari qiymət* – İnvestisiya Şirkətinin fərq müqavilələri üzrə müəyyən etdiyi qiymət;

2.30. *Spred* – Ticarət olunan maliyyə alətlərinin və ya baza aktivinin minimum vahidləri ilə ifadə olunan (punkt və ya “pips”lərdə) alış (ASK) və satış (BID) qiymətləri arasındakı fərqdir;

2.31. *Overnayt (Svop)* – Müştərinin ticarət etdiyi maliyyə alətinin (o cümlədən qiymətli kağızların) investisiya baza aktivinə, həmin baza aktivi ilə aparılan əməliyyatın həcminə və açılan mövqenin növünə uyğun olaraq hesablanan günlük faiz miqdarıdır;

2.32. *Skalpinq* – Müştərinin maliyyə aləti üzrə təhlil aparmadan qısa müddətli aralıqlarla davamlı və intizamsız şəkildə kiçik qiymət dəyişiklikliyi aralığında sifarişlər verməklə həyata keçirdiyi ticarət əməliyyatlarıdır;

2.33. Bu Ofertada xüsusi olaraq müəyyən edilməyən digər terminlər və onların tərifləri qiymətli kağızlar bazarı haqqında qanunvericiliklə, o cümlədən Mərkəzi Bankın normativ hüquqi aktları və ƏL/TMM Qanunu ilə onlar üçün müəyyən edilmiş mənalarda istifadə olunur.

## 3. Müqavilənin predmeti

3.1. İnvestisiya Şirkəti öz adından, Müştərinin hesabına və onun tapşırığına uyğun olaraq “Qiymətli kağızlar bazarı haqqında” qanun ilə əsas investisiya xidməti kimi müəyyən edilmiş marja ticarətini və bu Ofertada müəyyən edilmiş digər xidmətləri Müştəriyə təqdim etməyi öhdəsinə götürür;

3.2. İnvestisiya Şirkəti Müştəriyə lisenziya əsasında Azərbaycan Respublikasının hüquqi aktlarının tələblərinə və bu Ofertanın müəyyənləşdirdiyi şərtlərə əsasən marja ticarət xidmətini göstərir;

3.3. Xüsusi Razılaşma ilə başqa hal nəzərdə tutulmayıbsa, xidmətlərin göstərilməsi müqabilində İnvestisiya Şirkəti Müştəridən qüvvədə olan Tariflər əsasında hesablanmış məbləğdə xidmət haqqı və əlavə xərclər tutur;

3.4. Tariflər İnvestisiya Şirkəti tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər. Yeni Tariflər İnvestisiya Şirkəti tərəfindən müvafiq qərarın qəbul edildiyi gündən qüvvəyə minir. İnvestisiya Şirkəti Tariflərin dəyişməsi barədə müvafiq məlumatı rəsmi səhifəsində yerləşdirməli və Ofertanın akseptində (müştəri məlumatlarında) öz əksini tapmış əlaqə vasitələrindən hər hansı biri ilə Müştəriyə 15 (on beş) təqvim günündən gec olmayaraq təqdim etməlidir.

## 4. Müqavilənin bağlanması

4.1. Müqavilə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 409-cu maddəsinə uyğun olaraq Müştərinin ofertanı aksept (təsdiq) etməkləhəyata keçirdiyi potensial

müştərilər tərəfindən Ofertanın qəbul edilməsi (İnvestisiya Şirkətinin Müqavilə bağlamaq təklifinin qəbul edilməsi) yolu ilə bağlanır.

4.2. Bu Ofertanın aksept edilməsi ilə Müştəri tərəfindən aşağıdakı hərəkətlər edilməlidir:

4.2.1. Bu Ofertanın mətni, İnvestisiya Şirkətinin xidmət haqqı və bu Ofertadanəzərdə tutulmuş xidmətlərin göstərilməsi ilə bağlı xərclərinməbləği və bu xərclərin ödənilməsi şərtləri, habelə bu Ofertanın 2 saylı əlavəsində əks olunmuş risk məlumatlandırma sənədi ilə tanış olmalı;

4.2.2. Bu Ofertanın 1 saylı əlavəsinə uyğun olaraq tərtib edilmiş ərizə-anketdə əks olunmuş müştəri məlumatlarını İnvestisiya Şirkətinə təqdim etməlı;

4.2.3. Müqavilənin bağlanması üçün bu İnvestisiya Şirkəti tərəfindən tələb olunan sənəd və məlumatları təqdim etməlidir.

4.3. Müqavilə bağlandığı andan qüvvəyə minir. İnvestisiya Şirkəti növbəti 1 (bir) həftə ərzində aksept edən şəxsin şəxsiyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada eyniləşdirir və bu Ofertanın 1.2-ci bəndində göstərilən təsnifata aid olmasını yoxlayır. İnvestisiya Şirkəti uyğunsuzluq aşkar etmədikdə müştəri üçün xidmətlərdən istifadə imkanı yaradır, əks təqdirdə bu Ofertanı bir tərəfli qaydada ləğv edir;

4.4. İnvestisiya Şirkəti tərəfindən qanunvericiliklə müəyyən edilmiş və Müştəri tərəfindən təqdim edilməli olan sənədlər yoxlanılır, o cümlədən Müştəri səlahiyyətli nümayəndə tərəfindən təmsil olunduqda, həmin səlahiyyətli şəxsin şəxsiyyəti müəyyən edilir və təmsilçilik hüququnu təsdiq edən müvafiq sənədin - etibarnamənin mövcudluğu, etibarlılığı və onların şəxsiyyətini təsdiq edən sənədlərdə olan məlumatların etibarnamədə göstərilmiş məlumatlarla uyğunluğu yoxlanılır. Sənədlərdə uyğunsuzluqlar olduqda, İnvestisiya Şirkəti xidmət göstərilməsindən imtina edə və ya uyğunsuzluqları və ya əksiklikləri aradan qaldırdıqdan sonra yenidən müraciət etməsini Müştəridən tələb edə bilər;

4.5. Müştəri Ofertanı aksept etməsi ilə Ofertanın qüvvədə olduğu müddət ərzində xidmətlərin göstərilməsi ilə əlaqədar üçüncü şəxslər və digər əlaqəli şəxslərdən, o cümlədən ASAN Finans sistemindən bu Ofertanın icrası üçün zəruri olan bütün məlumatların (Müştərinin şəxsi identifikasiya məlumatları, iş yeri və gəlirlərinə dair məlumatlar daxil olmaqla) alınması barədə İnvestisiya Şirkətinə razılıq vermiş hesab edilir;

4.6. Müştəri Ofertanı aksept etməsi ilə İnvestisiya Şirkəti tərəfindən müştərinin aktivlərindən özünün və ya üçüncü tərəflərin marağı, xüsusilə öhdəliklərinin ödənilməsi üçün istifadə edə bilməsinə dair razılıq vermiş hesab edilir;

4.7. İnvestisiya Şirkəti Müştəri aktivlərinin cinayət yolu ilə qazanılmadığını və onların terrorçuluğun maliyyələşdirilməsi üçün istifadə edilməyəcəyini yoxlayır, belə hallar üzrə şübhələr yarandıqda qanunvericiliyin tələbi üzrə tədbirlər görür. Qeyd edilən faktlar üzrə İnvestisiya Şirkəti öz mülahizəsinə əsasən müştəri hesabını açmaq, bağlamaq, dondurmaq və ya ləğv etmək hüququnu özündə saxlayır. Bu halda İnvestisiya Şirkəti Müştəriyə dəymiş ziyana görə məsuliyyət daşımır;

4.8. Müştəridə və/və ya müştərinin səlahiyyətli nümayəndəsində aşağıda qeyd olunmuş əlamətlərdən hər hansı biri müəyyən edildikdə, Müştəri və ya onun səlahiyyətli nümayəndəsi İnvestisiya Şirkətinin faktiki ünvanına yaxınlaşaraq hüquqi aktlarla müəyyən edilmiş və İnvestisiya Şirkəti tərəfindən tələb olunan əlavə eyniləşdirmə məlumatlarını təqdim etməlidir:

4.8.1. ƏL/TMM Qanununun 9.1.-ci maddəsinə uyğun olaraq yüksək riskli zonaların vətəndaşları, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin zonalarda olan şəxslər və ya onların vasitəsilə, eləcə də həmin zonalarda qeydiyyatdan

keçmiş bankda hesaba malik olan şəxslər tərəfindən əməliyyatların həyata keçirilməsi;

4.8.2. ƏL/TMM Qanununun 11.1.1 və 11.1.2-ci maddələrində nəzərdə tutulan əməliyyatların həyata keçirilməsi;

4.8.3. ƏL/TMM Qanununun 11.2.1-ci və 11.2.2-ci maddələrində nəzərdə tutulan əməliyyatların həyata keçirilməsi;

4.8.4. ƏL/TMM Qanununun 11.3.1 və 11.3.2-ci maddələrində nəzərdə tutulan əməliyyatların həyata keçirilməsi;

4.9. Müştəri müştəri məlumatlarını tam və dolğun şəkildə İnvestisiya Şirkətinə təqdim edir;

4.10. İnvestisiya Şirkəti tərəfindən eyniləşdirilməmiş şəxslər eyniləşdirilmiş müştərilərin elektron məlumatlarını istifadə edərək həmin müştərilərin hesabındakı hərəkətlərlə İnvestisiya Şirkətinə zərər vurduqda İnvestisiya Şirkəti hesab üzrə bütün sifarişləri, ticarət əməliyyatlarının və digər hərəkətlərin nəticələrini ləğv edə bilər. Müştəri daha sonra bu məlumatlarda baş verən dəyişiklik və ya əlavələrlə bağlı İnvestisiya Şirkətini yazılı olaraq məlumatlandırmalıdır.

4.11. İnvestisiya Şirkətiilə Müştəri arasında olan bütün məlumatlandırma və hesablaşmalarda müştəri məlumatlarında göstərilən məlumatlara istinad edilir;

4.12. Müştəri məlumatlarında qeyd olunmuş yanlış məlumat səbəbindən yaranmış zərərə və ziyana görə məsuliyyət Müştəriyə aiddir;

4.13. Müştərinin və ya onun səlahiyyətli nümayəndəsinin təqdim etdiyi sənəd və məlumatların etibarlılığı müştərinin risk kateqoriyasından asılı olaraq İnvestisiya Şirkəti tərəfindən müəyyən edilmiş dövriliklə yoxlanılır. Uyğunsuzluqlar müəyyən edildikdə 2 (iki) iş günü ərzində müştəridən və ya onun səlahiyyətli nümayəndəsindən bunun səbəblərini açıqlayan məlumatların (sənədlərin) və ya əlavə eyniləşdirmə məlumatlarının yazılı (kağız daşıyıcıda və ya elektron imza ilə təsdiq olunmuş) şəkildə 30 (otuz) təqvim günü ərzində təqdim edilməsi tələb olunur. Qeyd edilən məlumatlar təqdim edilmədikdə ƏL/TMM qanununa müvafiq olaraq ofertaya İnvestisiya Şirkəti tərəfindən bir tərəfli qaydada xitam verilir;

4.14. Müştərinin müraciəti və lazımi sənədlər Müştəri tərəfindən xidmət yerində və ya şəxsi hesabı vasitəsilə təqdim olunur. Müraciət Müştəri tərəfindən bu Ofertada nəzərdə tutulmuş bütün xidmət şərtləri barədə məlumatlı olduğunu təsdiq edir. İnvestisiya Şirkəti tərəfindən bu Oferta ilə müəyyən edilmiş qaydada aksept alındığı andan Müqavilə bağlanmış hesab olunur;

4.15. Müqavilənin qüvvəyə mindiyi tarixdən etibarən Müştəri 4 saylı əlavəyə uyğun formada Ofertaya qoşulma haqqında şəhadətnaməni əldə etmək üçün investisiya şirkətinə müraciət edə bilər (Şəhadətnamə ərizənin qeydiyyat nömrəsini əks etdirir);

4.16. İnvestisiya Şirkəti və Müştəri arasında qarşılıqlı əlaqə aşağıdakı üsullarla həyata keçirilə bilər:

4.16.1. Xidmət yerində;

4.16.2. Şəxsi Hesabı vasitəsilə;

4.16.3. Səlahiyyətli nümayəndə vasitəsilə;

4.16.4. Müştəri məlumatlarında qeyd olunmuş əlaqə vasitələri ilə.

4.17. Tərəflər 4.15.-cibənddə göstərilən üsullar vasitəsi ilə təqdim edilən sənədlərin etibarlılığını və hüquqi qüvvəsini tanıyırlar. Müştəri əvvəllər onun seçdiyi İnvestisiya Şirkəti ilə qarşılıqlı əlaqə seçimlərinə müştəri məlumatlarında düzəliş etməklə dəyişiklik edə bilər;

4.18. Müştəri öz səlahiyyətli şəxslərini təyin edərsə, İnvestisiya Şirkətinə Bu Ofertanın 3 saylı əlavəsinə uyğun formada lazımi qaydada rəsmiləşdirilmiş etibarnamə təqdim edir.

## 5. Məxfilik və eyniləşdirmə

5.1. Tərəflər qanunvericiliyə uyğun olaraq müvafiq dövlət orqanları tərəfindən tələb edilən məlumatlar istisna olmaqla formasından asılı olmayaraq bir Tərəfdən qarşı Tərəfə (və ya onun işçilərinə/nümayəndələrinə) verilən məlumat və ya sənədi məxfi sayır və həmin məlumatların Ofertanın qüvvədə olduğu, habeləOferta xitam olunduqdan sonrakı müddət ərzində gizliliyini qorumağı öhdəsinə götürür;

5.2. Məxfi məlumatların hər hansı üçüncü Tərəfə açıqlanmasına yalnız qarşı Tərəfin yazılı razılığı və ya qanunvericilikdə nəzərdə tutulan hallarda yol verilə bilər;

5.3. Tərəflər razılaşır ki, bir Tərəfdən qarşı Tərəfə açıqlanmış hər hansı məxfi informasiyanı hazırkı Oferta üzrə münasibətlərlə əlaqədar və onların həyata keçirilməsindən başqa özünün hər hansı məqsədi üçün istifadə etməyəcək;

5.4. Tərəflər razılaşır ki, onlar məxfi informasiyanın məxfiliyini qorumaq, onun ictimaiyyətə məlum olmasının qarşısını almaq üçün bütün ağlabatan tədbirləri görəcək;

5.5. İnvestisiya Şirkəti Müştəri aktivlərinin cinayət yolu ilə qazanılmadığını və onların terrorçuluğun maliyyələşdirilməsi üçün istifadə edilməyəcəyini yoxlayır, belə hallar üzrə şübhələr yarandığı təqdirdə qanunvericiliyin tələbi üzrə müvafiq tədbirlər görür;

5.6. Müştəri Azərbaycan Respublikasının qanunvericliyinin tələbləri çərçivəsində tələb edilən sənədləri və məlumatları tələb olunan vaxtda Investisiya Şirkətinə təqdim etməlidir;

## 6. Tərəflərin hüquq və vəzifələri

*6.1. İnvestisiya Şirkətinin hüquqları:*

6.1.1. Göstərilmiş xidmətlərə görə tariflərin və əlavə xərclərin Müştəridən bu Oferta üzrə nəzərdə tutulan qaydada tam və vaxtında qarşılanmasını tələb etmək, habelə Müştəri hesabına qarşılamaq;

6.1.2. Müştəridən aşağıdakıları tələb etmək:

6.1.2.1. Azərbaycan Respublikasının qüvvədə olan hüquqi aktlarına uyğun olaraq tələb edilən və Müştərinin eyniləşdirilməsi ilə bağlı zəruri olan məlumat və sənədləri düzgün və təhrif olunmamış şəkildə təqdim etməyi;

6.1.2.2. Bu Ofertanın qüvvədə olduğu müddət ərzində sonuncuya edilmiş əlavə və dəyişiklikləri Müştərinin razılığı əsasında analoq imza vasitəsilə imzalamağı;

6.1.2.3. Müştəridən İnvestisiya Şirkətinin hesablarına marja ticarət xidmətlərinin göstərilməsini təmin etmək üçün tələb olunan aktivin köçürülməsini.

6.1.3. Müştərinin tam səlahiyyətli nümayəndəsi qismində Müştəri adından çıxış etmək və xidmətlərin göstərilməsi ilə bağlı Müştərini üçüncü tərəflər qarşısında təmsil etmək;

6.1.4. Müştəri sifarişlərinin icrasını Müştərinin razılığı əsasında qanunvericiliklə nəzərdə tutulmuş qaydada lisenziyaya sahib olan digər İnvestisiya Şirkətinə həvalə etmək;

6.1.5. Müştəri ilə telefon və digər vasitələrlə aparılan zənglərin və danışıqların bu barədə ona əvvəlcədən məlumat verməklə qeydiyyatını aparmaq;

6.1.6. Müştəri tərəfindən təqdim olunmuş sənədlərdə müştəri tərəfindən təqdim edilmiş pul vəsaitinin və əqdlərin mənbəyinin qeyri-qanuni xarakter daşıdığına dəlalət edən faktlar aşkar edildikdə, Müştəri bu pul vəsaiti və əqdlərin mənbəyinin qanuni olmasını təsdiq edənə qədər, Müştərinin sifarişinin icrasını dayandırmaq və ona xidmətlərinin göstərilməsindən imtina etmək;

6.1.7. Bu Oferta üzrə münasibətlərə xitam verilməsi halında Müştərinin İnvestisiya Şirkətinin hesabında qalmış vəsaitlərini bu Oferta üzrə İnvestisiya Şirkətinə ödənilməli tarif üzrə ödəmələri və əlavə xərcləri çıxmaq şərti ilə və belə hal yaranarsa, depozitarın, ticarət təşkilatçısının, likvidlik üzrə kontragentin, habelə Müştərinin öhdəlik daşıdığı və bu Oferta üzrə xidmətin göstərilməsi üzrə yaranmış digər şəxslərə ödəmələri çıxmaq şərti iləMüştəriyə qaytarmaq;

6.1.8. Müştərinin apardığı maliyyə əməliyyatlarının qanunvericiliyə (hüquqi aktlara) və ya şirkətin maliyyə siyasətinə zidd olmasına dəlalət edən faktlar və ya şübhələr olduqda, bununla bağlı müştəridən və ya onun səlahiyyətli nümayəndəsindən bunun səbəblərini açıqlayan məlumatları tələb etmək və ya sifarişlərin icrasını dayandırmaq;

6.1.9. Marja ticarəti xidmətindən irəli gələn əqdlərin bağlanması və Müştərinin qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə olan hüquqlarının müvafiq depozitarlarda və reyestrsaxlayıcılarda qeydiyyatı üçün tələb edilən hər hansı sənədi Müştəri adından imzalamaq;

6.1.10. Bu Ofertaya xitam verildiyi halda ticarət əməliyyatlarını dayandırmaq;

6.1.11. Müştəri İnvestisiya Şirkəti tərəfindən təqdim edilən elektron xidmətlərdən, o cümlədən ticarət platformasından istifadə etdiyi halda müvafiq loqin, şifrə vermək;

6.1.12. Yerli və qlobal maliyyə bazarlarında əhəmiyyətli dəyişiklik baş verdikdə Müştərinin sifarişinin icrasını, o cümlədən əqdlərini dayandırmaq və ya ləğv etmək;

6.1.13. Bu Oferta və hüquqi aktlardan irəli gələn digər hüquqlar.

*6.2. İnvestisiya Şirkətinin vəzifələri:*

6.2.1. Müştəriyə fərdi eyniləşdirmə nömrəsi vermək və məxfiliyin təmin edilməsi məqsədilə Müştəriyə aid məlumatların İnvestisiya Şirkətinin daxili uçot sistemində eyniləşdirmə nömrəsinə görə saxlanılmasını təmin etmək;

6.2.2. Müştərinin hesablarının və uçot sisteminin düzgünlüyünü təmin etmək, o cümlədən, mütəmadi olaraq onların qarşılıqlı uyğunluğunu yoxlamaq;

6.2.3. Müştərinin sorğusu əsasında müştəriyə məxsus hesablar haqqında məlumatı Müştəriyə təqdim etmək;

6.2.4. İnvestisiya xidmətlərini vicdanla aparmaq və Müştərinin mənafelərini qorumaq;

6.2.5. Müştərilərin aktivlərindən məhkəmə qərarı ilə müəyyən edilmiş hallar istisna olmaqla, onların icazəsi olmadan özünün və ya üçüncü tərəflərin marağı üçün, xüsusilə öhdəliklərinin ödənilməsi üçün istifadə etməmək;

6.2.6. Müştərinin şəxsi məlumatları, sifarişləri, eləcə də aktiv və öhdəlikləri barədə məlumatları qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla məxfi saxlamaq və Müştərinin razılığı olmadan üçüncü tərəfə ötürməmək;

6.2.7. İnvestisiya Şirkətinin daxili uçot sistemində Müştəriyə müvafiq xidmətlərin göstərilməsi ilə bağlı hesablar açmaq və hesablarda saxlanılan məlumatlara Müştərinin çıxışını təmin etmək;

6.2.8. Marja ticarəti xidmətlərinin göstərilməsi İnvestisiya Şirkətindən asılı olan səbəbdən mümkün olmadıqda Müştəriyə bu barədə ən geci 5 (beş) iş günü ərzində telefon (SMS, zəng, Müştərinin təqdim etdiyi və İnvestisiya Şirkətində tətbiq edilən messencer, investor otağı), poçt və ya elektron poçt vasitəsilə məlumat vermək;

6.2.9. Müştəri maraqlarını İnvestisiya Şirkətinin maraqlarından hər zaman üstün tutmaq;

6.2.10. Göstərilən xidmətləri (əməliyyatları) yalnız Müştərinin və ya onun səlahiyyətli nümayəndəsinin sifarişi əsasında həyata keçirmək;

6.2.11. Bu Ofertanın predmetini təşkil edən xidmətləri bu Ofertanın və qüvvədə olan hüquqi aktların normalarına uyğun şəkildə vaxtında və lazımi qaydada icra etmək;

6.2.12. Qanunvericiliklə nəzərdə tutulmuş hesabatları Müştəriyə təqdim etmək;

6.2.13. Sifarişi qiymətli kağız və ya törəmə maliyyə alətinin qiyməti və sifarişin icra olunması ilə bağlı xərclər də daxil olmaqla ümumi xərclər baxımından Müştəri üçün ən yaxşı qiymət prinsipi əsasında icra etmək.

*6.3. Müştərinin hüquqları:*

6.3.1. Verdiyi sifarişlər və apardığı əməliyyatlar, eləcə də aktivləri və öhdəlikləri barədə İnvestisiya Şirkətindən məlumat almaq;

6.3.2. Bu Oferta üzrə akseptdə qeyd edilən marja ticarət xidmətlərinin icrasını İnvestisiya Şirkətindən tələb etmək;

6.3.3. İnvestisiya Şirkətinə keçirdiyi əməliyyatlara dair məlumat sorğusu təqdim etmək, o cümlədən bu cür xidmət elektron platfroma vasitəsilə təqdim edildiyi halda bilavasitə əldə etmək;

6.3.4. Bu Ofertanın akseptində qeyd edilən hesabların açılması üçün İnvestisiya Şirkətinə müraciət etmək;

6.3.5. İnvestisiya Şirkətinə bu Ofertanın şərtlərinə uyğun olaraq bu Oferta üzrə müqavilə münasibətinə xitam verilməsi üçün müraciət etmək;

6.3.6. Bu Ofertaya uyğun olaraq hesabında olan sərbəst pul vəsaitlərinin (Müştərinin əməliyyatları üzrə (sifarişlər və əqdlər), tarif, əlavə xərclər, mümkün cərimələr, vergilər və hesablaşmaları tamamlanmamış sair öhdəliklər istisna olmaqla yerdə qalan pul vəsaitləri) məxaric edilməsinə dair İnvestisiya Şirkətinə sorğu etmək.

*6.4. Müştərinin vəzifələri:*

6.4.1. İcra edilmiş sifarişə görə ödəmələrin və xidmətin göstərilməsi ilə bağlı əlavə xərclərin bu Oferta ilə nəzərdə tutulan qaydada tariflərə uyğun olaraq tam və vaxtında qarşılanmasını təmin etmək;

6.4.2. Müştərinin eyniləşdirilməsi və əməliyyatları ilə bağlı İnvestisiya Şirkəti tərəfindən sorğu edilən məlumat və sənədləri, düzgün və təhrif olunmamış formada 5 (beş) iş günü müddətində İnvestisiya Şirkətinə təqdim etmək;

6.4.3. Marja ticarəti xidmətlərinin göstərilməsi ilə bağlı üçüncü tərəflərlə birbaşa əlaqə yaratmamaq və üçüncü tərəflərin Müştəriyə birbaşa müraciətləri olduqda, onları İnvestisiya Şirkətinə yönləndirmək;

6.4.4. İnvestisiya Şirkətinə təqdim etdiyi eyniləşdirmə məlumatlarında hər hansı dəyişiklik baş verdikdə, bu barədə İnvestisiya Şirkətini 5 (beş) iş günü ərzində məlumatlandırmaq və yenilənməni təsdiq edən müvafiq sənədləri İnvestisiya Şirkətinə təqdim etmək;

6.4.5. İnvestisiya Şirkətinin hesablarına marja ticarəti xidmətlərinin göstərilməsini təmin etmək üçün tələb olunan aktivlərin köçürülməsini və ya mədaxilini təmin etmək;

6.4.6. Yararlanmaq istədiyi xidmət üzrə tələb olunan aktivin İnvestisiya Şirkətinin hesabına köçürülməsi barədə sonuncunu məlumatlandırmaq;

6.4.7. Bu Oferta imzalanarkən, o cümlədən sonradan tələb edildikdə İnvestisiya Şirkətinə düzgün və təhrif olunmamış məlumatları təqdim etmək;

6.4.8. Məlum səbəblərdən Müştəriyə bu Oferta üzrə xidmətin göstərilməsinə əsaslı təsiri ola biləcək dəyişikliklər (o cümlədən, sahib olduğu aktivlər üzrə hüquqların məhdudlaşdırılması və itirilməsi, barəsində prosessual tədbirlər görüldükdə və s.) baş verdikdə və ya bu halın baş verməsi barədə Müştəri məlumatlı olduqda İnvestisiya Şirkətini dəyişiklik baş verdiyi və ya bu hal barədə məlumatı bildiyi və ya bilməli olduğu tarixdən etibarən 5 (beş) iş günü ərzində məlumatlandırmaq;

6.4.9. Maliyyə bazarları haqqında məlumatlanmaq, özünü inkişaf etdirmək və investorun etik qaydalarına riayət etmək;

6.4.10. Ticarət platformasına nəzarət və platforma vasitəsi ilə təqdim edilən məlumatların (xəbərdarlıq, bildiriş və s.) izlənilməsi vəzifəsini həyata keçirmək. Müştəri qəbul edir ki, bu məlumatlar əsasında adekvat hərəkətlərin və ya hal tələb edirsə hərəkətsizliklərin icrası bilavasitə onun vəzifəsidir;

6.4.11. Bu Ofertaya əsasən göstəriləcək xidmətlərin müqabilində tariflərlə müəyyən edilmiş məbləğ və əlavə xərcləri sifarişin elektron ticarət platformasında yerləşdiyi anadək ödəmək.

## 7. Müqavilə üzrə irəli gələn hesablaşma və müştəri aktivləri

7.1. Baza aktivi səhmlər olan fərq müqavilələri ilə ticarət zamanı açıq mövqelərin bağlanması sifarişlərinin icrası ilə bağlı xidmət haqqı tətbiq edilmir;

7.2. İnvestisiya Şirkətinin tətbiq etdiyi alış və satış qiymətləri arasındakı fərq, əməliyyat mövqeynin növbəti günə keçirilməsi ilə bağlı svop xərci, baza aktivinin dəyişməsi ilə

bağlı qiymət fərqinin hesaba tətbiqi və s. bu müqavilədə göstərilməyən xərclər, xidmət haqqı deyildir və əməliyyat xərci hesab olunur;

7.3. İnvestisiya Şirkəti müştərinin sifarişləri üzrə xərcləri və xidmət haqqlarını sifarişin icra olunması vaxtında və ya daha sonra müştərinin hesabından silir;

7.4. Svop xərci həftə içi İnvestisiya Şirkətinin müəyyən etdiyi günlərdən birində 3 (üç)günlük hesablandıqda, həmin maliyyə aləti üzrə həftə sonu açıq mövqenin saxlanması üçün 1 (bir) günlük hesablanır;

7.5. Hər bir maliyyə aləti üzrə svop xərcinin hesablanma günləri ticarət platformasında göstərilir;

7.6. İnvestisiya Şirkəti müştəri ilə arasında olan müqavilə üzrə müştəri öhdəliklərini onun hesabından əlavə sərəncam olmadan silir;

7.7. Fərq müqaviləsi roloveri hər bir maliyyə aləti üzərindən ayrıca, hesablaşma anına açıq mövqelər üzrə hesablanır. Müştərinin hesabına hesablanan fərq müqaviləsi roloveri aşağıdakı düsturla müəyyən olunur:

$$FMR = -\left[V * \left(P_{F0} - P_{F1}\right)\right] - S_D$$

*FMR = Fərq müqaviləsi roloveri*
*V = Həcm*
*$P_{F0}$ = Baza aktivi olan cari fyuçers müqaviləsinin cari qiyməti*
*$P_{F1}$ = Baza aktivi olan növbəti fyuçers müqaviləsinin cari qiyməti*
*$S_D$ = Günlük Svop xərci*

7.8. Müştəri İnvestisiya Şirkətinə xidmət haqqı və sifarişlərin icrası ilə bağlı xərcləri nağd, bank köçürməsi, ödəniş terminalları və ya POS terminal vasitəsi ilə ödəyir;

7.9. Müştərinin hesabında açıq mövqe olduqda Müştərinin aktivlərin qaytarılması üzrə tələbini yerinə yetirmək üçün İnvestisiya Şirkəti açıq mövqelərin bağlanmasını tələb edə bilər;

7.10. Müştərinin aktivlərinin geri qaytarılması ilə bağlı tələbini İnvestisiya şirkəti növbəti 3 (üç) iş günü ərzində həyata keçirir;

7.11. Müştəri Investisiya Şirkətindəki hesabından özünə məxsus pul vəsaitlərini müraciət edərək, bir müraciət üzrə hesabında olan valyutaya uyğun maksimal 100,000 ş.v., bir təqvim ayı üzrə isə maksimal 300,000 ş.v. olmaqla geri ala bilər. Bu məbləğlər İnvestisiya Şirkəti tərəfindən müştəriyə təqdim edilmiş investor otağında göstərilməklə dəyişdirilə bilər;

7.12. Müştərinin məxaric tələbi zamanı Investisiya Şirkəti tərəfindən tətbiq olunan komissiyalar müvafiq qaydada Tariflərə uyğun olaraq əməliyyatın keçirildiyi valyutada, həmin günə AR Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun AZN ekvivalentində hesablanır.

## 8. Marja ticarəti xidmətinin təqdim edilməsi qaydası və şərtləri

*8.1. Xidmətin təqdim edilmə əsasları:*

8.1.1. İnvestisiya Şirkəti qiymətli kağızlar, fərq müqavilələri və digər maliyyə alətləri ilə marja ticarətini təşkil edir;

8.1.2. İnvestisiya Şirkəti müştəriyə marja ticarətini müqavilə qüvvəyə mindiyi andan təqdim edir;

8.1.3. İnvestisiya Şirkəti bu xidmətin verilməsi ilə bağlı müştərini şəxsi hesabı üzrə risklərə nəzarət etməyə, marja təminatlarını hesablamağa və yaranmış risklərə

qarşı Müştəriləri məlumatlandırmağa imkan verən müvafiq sistem (proqram təminatı) ilə təchiz edir;

8.1.4. Müştəri peşəkar investor kimi təsnifləşdirilə bilinirsə və bu Ofertanın 8.2.20.-ci bəndinə uyğun olaraq marja ticarəti xidmətini almaq istəyirsə bu barədə İnvestisiya Şirkətinə müraciət edir;

8.1.5. Müştəri aşağıdakı tədbirlər icra edildikdən sonra ticarətə başlayır:

8.1.5.1. “Marja ticarəti üzrə risk məlumatlandırma sənədi” ilə tanış olur və imzası ilə təsdiq edir;

8.1.5.2. Real bazar dəyərləri ilə işləyən təlim (demo) hesabında ən azı 5 (beş) iş günü olmaqla ən azı 30 (otuz) ticarət əməliyyatı aparır və ya belə ticarəti apardığı haqqında sənəd təqdim edir.

8.1.6. Müştəri marja ticarəti üzrə bilik və bacarıqlara yiyələnmək məqsədi ilə təlimlərdə iştirak edə bilər;

8.1.7. Müştəri, seçdiyi təlim növündən asılı olaraq İnvestisiya Şirkətindən ödənişli, güzəştli və ödənişsiz təlimlər ala bilər;

8.1.8. Müştərinin daha əvvəl marja ticarəti ilə bağlı öz vəsaitləri ilə aparılmaqla təcrübəsi varsa bunu göstərən müvafiq sənədləri (marja hesabından çıxarış) İnvestisiya Şirkətinə təqdim edir;

8.1.9. İnvestisiya Şirkəti müştəriləri üçün hesablar açır, onları bağlayır və marja çağırışını həyata keçirir;

8.1.10. Müştəriyə bu müqavilə üzrə göstərilən xidmətlə bağlı maliyyə aktivlərinin qiymətləri, investisiya şirkəti tərəfindən müştəri sifarişləri, qlobal bazar qiymətləri, əməkdaşlıq etdiyi üçüncü tərəflər, fundamental iqtisadi şəraitin təhlili və s. komponentlərin nəticəsi olaraq formalaşdırılır və müştəriyə təqdim olunur;

8.1.11. Marja ticarəti xidmətinin göstərilməsi ilə bağlı müştəri ilə ünsiyyətdə olan investisiya şirkətinin əməkdaşlarının bazar haqqında verdiyi məlumatlar, qiymət gözləntiləri, volatillik ehtimalları və digər məlumatlar heç bir halda investisiya məsləhəti sayılmır, gələcək ilə bağlı mütləq gəlir və ya zərərə qarşı təminat barədə vədlər kimi anlaşılmamalıdır.

8.1.12. Müştəri müqavilə üzrə bu Ofertanın şərtlərinə uyğun investisya şirkətindən marja ticarəti xidmətini alır;

8.1.13. Müştəri heç bir halda İnvestisiya Şirkətinin işçisindən, əməkdaşından və ya peşəkar münasibətdə olduğu üçüncü şəxslərdən digər xidmətləri almamalıdır, buna səy göstərməməməlidir, bununla əlaqəli təklifləri qəbul etməməlidir;

8.1.14. Müştərinin İnvestisiya Şirkətinin işçiləri, əməkdaşları və digər peşəkar münasibətdə olduğu üçüncü şəxslərdən digər xidmətlər aldıqda və ya almağa çalışdıqda İnvestisiya Şirkəti bu hal ilə əlaqədar hesab üzrə bütün sifarişləri, ticarət əməliyyatlarının və digər hərəkətlərin nəticələrini ləğv etməyə hüququ vardır.

*8.2. Sifarişlərin qəbulu və icrası:*

8.2.1. Müştəri Investisiya Şirkətinə sifarişləri yalnız İnvestisiya Şirkətinin ticarət platforması üzərindən verir;

8.2.2. Müştəri sifarişləri Investisiya Şirkətinin ona verdiyi müvafiq elektron mühit üzərindən verir;

8.2.3. İnvestisiya Şirkəti bir Müştərisinə aid giriş adı üzərindən verilən bütün sifarişləri müvafiq Müştərinin sifarişləri olaraq qəbul və icra edir. Müştəri onun giriş adı ilə verilmiş bütün sifarişlərə, hərəkətlərə və ya hərəkətsizliklərə görə cavabdehdir;

8.2.4. Müştəri hesab məlumatlarını itirdikdə və ya onun icazəsi olmadan və (və ya) bu Oferta ilə müəyyən edilən hesablaşma qaydasına uyğun olmayan şəkildə onun hesabı üzrə əməliyyatların olduğundan şübhələndikdə bu barədə dərhal İnvestisiya Şirkətinə məlumat verməlidir. Müştəri belə məlumatı İnvestisiya Şirkətinə vermədiyi halda bununla bağlı bütün məsuliyyət Müştəriyə aiddir, İnvestisiya Şirkəti məsuliyyət daşımır vəmüştəri hesabı üzrə bütün sifarişləri, açıq və bağlı mövqeləri və onların nəticələrini ticarət əməliyyatlarının və digər hərəkətlərin nəticələrini ləğv etməyə hüququ vardır;

8.2.5. İnvestisiya Şirkəti Müştəridən sifarişləri proqram təminatı üzərindən internet vasitəsi ilə alır;

8.2.6. İnvestisiya Şirkətinin sifarişləri qəbul etdiyi ticarət platforması internet səhifə, kompüter proqramı və mobil proqramı üzərindən təşkil olunur;

8.2.7. Müştəri sifariş müddətini öncədən təyin etmədikdə, sifariş sifarişin ləğvi tarixinədək və ya müqaviləyə xitam verilənədək qüvvədə qalır;

8.2.8. Müştəri maliyyə aləti üzrə sifariş verdikdə, sifariş qiymətini və bu maliyyə aləti üzrə bütün ticarət və digər şərtləri qəbul etmiş hesab olunur;

8.2.9. Müştəri Investisiya Şirkətinə aşağıdakı növ sifarişləri verir:

8.2.9.1. Bazar qiymətli sifariş (market order) – müştərinin İnvestisiya Şirkətinin təqdim etdiyi cari qiymət ilə verdiyi sifariş;

8.2.9.2. Alış limit sifarişi (buy limit) – müştərinin cari qiymətdən aşağı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan alış sifarişi;

8.2.9.3. Satış limit sifarişi (sell limit) – müştərinin cari qiymətdən yuxarı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan satış sifarişi;

8.2.9.4. Alış stop sifarişi (buy stop) – müştərinin cari qiymətdən yuxarı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan alış sifarişi;

8.2.9.5. Satış stop sifarişi (sell stop) – müştərinin cari qiymətdən aşağı təyin etdiyi qiymətə çatdıqdan sonra cari qiymət ilə icra olunan satış sifarişi;

8.2.9.6. Təqib stopsifarişi (trailing stop) – uzun mövqedə müştərinin alış qiymətindən yuxarıda, cari bazar qiymətindən aşağıda olan, qısa mövqedə isə müştərinin satış qiymətindən aşağıda, cari bazar qiymətindən yuxarıda olan qiymətlə icra olunan sifariş;

8.2.9.7. Gəliri götür sifarişi (take profit) – uzun mövqedə cari qiymətdən yuxarıda, qısa mövqedə isə cari qiymətdən aşağıda olan, müştəri tərəfindən müəyyən olunmuş limit qiymətinə çatdıqdan sonra cari qiymət ilə icra olunan sifariş;

8.2.9.8. Zərəri dayandır sifarişi (stop loss) – uzun mövqedə cari qiymətdən aşağıda, qısa mövqedə isə cari qiymətdən yuxarıda olan, müştəri tərəfindən müəyyən olunmuş limit qiymətinə çatdıqdan sonra cari qiymət ilə icra olunan sifariş.

8.2.10. Müştəri istənilən zaman, öz qərarlarına müvafiq olaraq bu Ofertanın 8.2.10.1. - 8.2.10.5. bəndlərində göstərilən sifarişlərlə ticarət əməliyyatınıaça, 8.2.10.6. - 8.2.10.8. bəndlərdə göstərilmiş sifarişlərlə isə bağlaya bilər;

8.2.11. Müştəri tərəfindən yazılı məlumatlandırma olmadığı təqdirdə qismən icra edilmiş və ya icra edilməmiş sifarişin icrası üzrə İnvestisiya Şirkəti məsuliyyət daşımır;

8.2.12. Fərqli ticarət platformalarının xüsusiyyətlərinə uyğun olaraq Müştərinin eyni fərq müqaviləsi üzrə əks mövqe ticarət əməliyyatı həmin müqavilə üzrə mövqeyini müvafiq həcmdə bağlaya bilər;

8.2.13. Müştərinin mövqe açmaq üçün ofertada müəyyən olunmuş kredit həddi nisbətinə uyğun təminat marjası onun hesabında dondurulur;

8.2.14. İnvestisiya Şirkətinin Müştəriyə təqdim etdiyi ticarət platformasında göstərilən qiymətlər mümkün ən kiçik həcm üzrə sifariş qiymətidir. Daha iri həcmlər üzrə qiymət platformada əks etdirilmir;

8.2.15. Müştərinin növbəti mövqe açmaq üçün hesablanan təminat marjası, sərbəst təminat marjası üzərindən hesablanır;

8.2.16. Müştərinin eyni fərq müqaviləsi üzrə əks mövqe ticarət əməliyyatı üçün sərbəst təminat marjası və marja səviyyəsi üzrə tələb, spred, minimum və maksimum sifariş həcmi, sifarişlərin qəbulu vaxtı, minimum qiymət dəyişikliyi həddi, standard sifariş həcminin dəyəri fərqli ticarət platformalarının xüsusiyyətləri, baza aktivi üzrə qlobal bazar dəyişiklikləri və s. amillərlə bağlı fərqli səviyyələrdə tətbiq oluna bilər;

8.2.17. İnvestisiya Şirkəti, qiyməti baza aktivi olan fyuçers müqaviləsinin qiyməti əsasında formalaşan fərq müqavilələri üzrə müvafiq fyuçers müqaviləsinin son ticarət tarixində müştərinin açıq mövqelərini məcburi bağlamamaq məqsədi ilə növbəti qiyməti növbəti tarixli fyuçersin cari qiymətinə uyğun müəyyənləşdirir. Müvafiq qiymət fərqi fərq müqaviləsi roloveri olaraq Müştərinin hesabına tətbiq edilir. Müştəri fərq müqaviləsi roloverinin hesabına tətbiq edilməsini istəmədikdə mövqeni bağlamalıdır;

8.2.18. İnvestisiya Şirkətinin fərq müqaviləsi üzrə müştərilərinə təqdim etdiyi kredit həddinin maksimum həcmi müvafiq hüquqi normativ aktların tələblərinə görə müəyyən edilir və ona uyğun dəyişdirilə bilər;

8.2.19. İnstitutsional investorlara və peşəkar investorlara İnvestisiya Şirkəti tərəfindən verilən kredit həddinin maksimal həcmi müvafiq hüquqi normativ aktların tələblərinə görə daha yuxarı həddə müəyyən oluna və dəyişdirilə bilər;

8.2.20. Müştərinin hesabı üzrə marja səviyyəsi 100% olduqda İnvestisiya Şirkəti Müştəriyə marja çağırışı edir. Marja çağırışı Müştərinin bu müqavilənin tərkib hissəsi olan müştəri məlumatlarında göstərilən mobil nömrəsinə sms vasitəsi ilə, (və ya) e-poçt ünvanına və (və ya) ticarət platforması üzərindən göndərilir;

8.2.21. Müştəri hesabı üzrə mövqelərinin məcburi bağlanması (stop out) marja səviyyəsi 20% olduqda İnvestisiya Şirkəti tərəfindən həcm və ya zərər üzrə iridən kiçiyə olmaqla müvafiq ardıcıllıqla aparılır;

8.2.22. Marja çağırışı zamanı Müştəri öz hesabına əlavə pul vəsaiti mədaxil edə və ya açıq mövqelərini bağlamaqla risklərini idarə edə bilər;

8.2.23. İnvestisiya Şirkəti bu Ofertanın 8.2.19.- 8.2.20.-ci bəndlərində göstərilmiş həddi müştəriyə bildirməklə dəyişdirə bilər;

8.2.24. İnvestisiya Şirkətinin müştəri mövqelərini bağlaması nəticəsində Müştərinin sərbəst təminat marjası onun bu Ofertanın 8.2.22.-ci bəndində göstərilmiş həddən fərqli ola bilər;

8.2.25. İnvestisiya Şirkəti Müştərinin kredit həddini azalda və bu müqavilədə göstərilmiş və qanunvericilik ilə müəyyən olunmuş həddən çox olmamaq şərti ilə artıra bilər;

8.2.26. Maliyyə alətləri üzrə qiymətlərin yüksək volatilliklə dəyişməsi səbəbindən müştəri sahib olduğu pul vəsaitindən daha artıq zərərə məruz qaldıqda İnvestisiya Şirkəti yaranan zərəri Müştəridən tələb etmir.

*8.3. Təmsiliçilik:*

8.3.1. Müştəri hesabı üzrə ticarət əməliyyatlarını aparmaq üçün üçüncü şəxsə sərəncam hüququnu bu Ofertanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş qaydada tərtib edilən və doldurulan, habelə notarial qaydada təsdiq edilmiş etibarnamə əsasında verilir. Müştəri üçüncü şəxsə verilən etibarnamənin formasını İnvestisiya Şirkətindən əldə edə bilər;

8.3.2. Hesab üzrə sərəncama malik şəxslərin sayı 1 (bir)-dən çox olarsa, bu sərəncamın fərdi və ya müştərək olması haqqında xüsusi qeyd olmadığı təqdirdə bu sərəncamlar ayrı – ayrı hüquqi qüvvəyə malik sərəncamlar və hər bir sərəncamı olan şəxs ayrı fərdi səlahiyyətə malik şəxs kimi qəbul edilir;

8.3.3. Müştəri etibarnamə verdiyi şəxslərin onun hesabı üzrə bütün hərəkət və ya hərəkətsizliyinə görə məsuliyyəti özü daşıyır, hesab qalıqları üzrə bütün dəyişikliklər müştəriyə aid edilir;

8.3.4. Müştəri istədiyi zaman İnvestisiya Şirkətinə müraciət edərək etibarnamə verdiyi şəxslərin sərəncam hüququnu dayandıra bilər. Müştəri belə müraciəti etdikdə onun hesabı üzrə açıq mövqeyi olmamalıdır;

8.3.5. İnvestisiya Şirkəti Müştərinin verdiyi etibarnamənin bitmə müddəti üzrə uçot aparmır. Etibarnamə müddətinin bitməsi, onun ləğvi və ya digər hallarla bağlı Müştəri İnvestisiya Şirkətinə 3 (üç) təqvim günü ərzində məlumat verirvə belə müraciətə qədər bütün məsuliyyət müştəriyə aiddir.

8.3.6. Müştərinin etibarnamə verdiyi şəxsə münasibətdə etibarnamənin ləğvi, müddətinin bitməsi və digər hallar ilə əlaqədar hər hansı dəyişikliklər İnvestisiya şirkətinə birbaşa, rəsmi şəkildə bildirilmədikdə İnvestisiya şirkəti, Müştəri hesabındakı əməliyyatlarla bağlı heç bir məsuliyyət daşımır;

*8.4. Xüsusi şərtlər:*

8.4.1. Müştəri sifarişləri heç bir halda İnvestisiya Şirkətindəki hesabda eyni və ya fərqli şirkətlərdən, eyni şirkətdə eyni və ya fərqli müştərilərin adına olan hesablardan, eləcə də eyni və ya fərqli hesablar vasitəsi ilə İnvestisiya Şirkətinin Müştəriyə verdiyi səmərəli ticarət şərtlərini, platformada yaranmış texniki nasazlıqları, qiymət ardıcıllığındakı boşluqları və s. digər bu kimi qeyri-adi halları sui-istifadə etməklə maliyyə alətinin təhlilinə əsaslanmayan tək tərəfli və ya əks mövqelər açmaq üçün verməməlidir. İnvestisiya Şirkəti bu halları aşkarladıqda Müştərinin belə mövqelər üzrə nəticələrini ləğv edə və ya müştəridən tələb edə bilər;

8.4.2. İnvestisiya Şirkəti Müştəriyə səmərəli ticarət şərtlərini, o cümlədən svop xərcinin hesablanmamasını aktiv ticarəti təşviq etmək üçün təqdim edə bilər. Belə ticarət şərtlərinə sahib Müştəri bu şərtləri passiv faiz gəliri əldə etmək üçün istifadə etməməlidir. İnvestisiya Şirkəti təqdim etdiyi səmərəli ticarət şərtlərinin aktiv ticarət üçün istifadə edilmədiyini müəyyən etdikdə belə şərtlərin verildiyi tarixdən etibarən Müştərinin ticarət hesabı üzrə bütün nəticələrini, açıq mövqelərini və sifarişlərini ləğv edə bilər;

8.4.3. Müştəri Skalpinq ticarəti etmək istədikdə bu barədə İnvestisiya Şirkətini məlumatlandırmalıdır. İnvestisiya Şirkəti belə ticarəti razılıq olmadan müşahidə etsə, bu növ ticarətə başladığı andan etibarən Müştərinin əldə etdiyi bütün ticarət nəticələrini ləğv edə bilər;

8.4.4. Fərqli ticarət platformalarının xüsusiyyətlərinə görə, qiymət formalaşması zamanı müəyyən gecikmələr, sistemdə donma halları və İnvestisiya Şirkətinin dərhal müdaxilə imkanı olmayan digər hallarda müəyyən maliyyə alətləri üzrə qlobal bazar qiymətlərindən əhəmiyyətli dərəcədə uzaqlaşma ola bilər. Bu uzaqlaşmalar zamanı müştəri mövqeləri üzrə nəticələrin də daxil olduğu hesab qalıqları bu uzaqlaşmalar müəyyən olunduqdan sonra dondurulur və uzaqlaşmanın yaratdığı nəticələr aradan qaldırıldıqdan sonra dondurulmadan azad olunur. Müştəri bu uzaqlaşamaların müəyyən olunduğu vaxtadək belə uzaqlaşmanın yaratdığı nəticənin də daxil olduğu sərbəst təminat marjası üzrə məxaric etmişdirsə, bu zaman uzaqlaşmanın yaratdığı nəticələr qədər İnvestisiya Şirkəti qarşısında öhdəlik daşıyır;

8.4.5. Müştərinin eyni maliyyə aləti üzrə əks mövqe ticarət əməliyyatı onu spred genişlənməsi riskindən qorumur və hesabında qalıq vəsaitin dəyişməməsinə təminat vermir. Sərbəst təminat marjası azaldıqda İnvestisiya Şirkəti müştəri mövqelərini bu Ofertanın 8.2.21.-ci bəndinə uyğun olaraq məcburi bağlayacaqdır;

8.4.6. Müştəri marja çağırışına əməl etmədikdə İnvestisiya Şirkəti Müştəriyə əlavə çağırış etmir. Hesab üzrə qalıq azaldıqda İnvestisiya Şirkəti müştəri mövqelərini bu Ofertanın 8.2.21.-ci bəndinə uyğun olaraq məcburi bağlayacaqdır;

8.4.7. Ticarət platformasında baş verən texniki nasazlıq nəticəsində Müştərinin əldə etdiyi gəlir və ya zərər İnvestisiya Şirkəti tərəfindən Müştəri hesabına əlavə edilə və ya müvafiq olaraq silinə bilər.

## 9. Hesabatlıq

9.1. İnvestisiya Şirkəti Müştəriyə marja ticarəti üzrə qiymətli kağızların və baza aktivlərinin hərəkətinə və həmçinin qalıqlara nəzarət etmək imkanı yaradır;

9.2. Fərq müqavilələri ilə marja ticarəti aparan Müştərinin ticarət platforması vasitəsilə real vaxt rejimində ən azı aşağıdakı məlumatlara çıxışı təmin edilir:

9.2.1. Açılan bütün mövqelərə dair baza aktivinin növü və əməliyyatın istiqaməti;

9.2.2. Əməliyyatın icra tarixi, vaxtı, qiyməti və lot ölçüsü;

9.2.3. Tələb olunan marja miqdarı;

9.2.4. Müştəri balansı və kapitalı;

9.2.5. Bağlanılan mövqelərə dair xalis mənfəət və zərər miqdarı;

9.2.6. Açıq mövqelərə dair potensial mənfəət və zərər miqdarı.

9.3. İnvestisiya Şirkəti Müştəri ilə müştəri məlumatlarında göstərilən əlaqə vasitələri ilə, eləcə də müştərinin təqdim etdiyi ticarət platforması və investor otağı vasitəsilə ünsiyyət qurur və məlumatları ötürür. Bu halda Müştəri məlumatları əldə etmiş hesab edilir;

9.4. İnvestisiya Şirkəti tərəfindən müştərilərə verilən hesabatlar və məlumatlar bu Müqaviləyə uyğun şəkildə kağız daşıyıcıda və ya elektron formada (elektron poçt və ya şəxsi hesabı vasitəsi ilə) təqdim edilir.

## 10. Tərəflərin məsuliyyəti

10.1. İnvestisiya Şirkəti, Müştərinin sifarişlərinə və bu Ofertanın şərtlərinə əməl etməməyə və ya lazımi qaydada əməl etməməyə görə, yalnız bu cür əməl İnvestisiya Şirkətinin qəsdən və ya kobud ehtiyatsızlığı səbəbindən yarandığı hallarda Müştəri qarşısında məsuliyyət daşıyır;

10.2. İnvestisiya Şirkəti heç bir halda Müştəri tərəfindən İnvestisiya Şirkətinə təqdim edilən sənədlər və məlumatlar, habelə məlumat təminatçısı tərəfindən təqdim edilənlər əsasında qəbul edilmiş investisiya qərarlarına görə məsuliyyət daşımır. Tərəflər razılığa gəlirlər ki, İnvestisiya Şirkəti tərəfindən marja ticarəti xidmətlərinin yerinə yetirilməsi hər hansı investisiya məsləhətinin verilməsini nəzərdə tutmur və İnvestisiya Şirkəti, Müştərinin İnvestisiya Şirkəti vasitəsilə əldə etdiyi qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin emitentinin maliyyə vəziyyətinə, habelə qiymətli kağızların, törəmə maliyyə alətlərinin və digər maliyyə aktivləri üzrə bazar şərtlərinin dəyişməsinə görə məsuliyyət daşımır;

10.3. Müştəri, İnvestisiya Şirkətinə natamam və ya düzgün olmayan məlumat verməsi, təqdim etməli olduğu sənədləri İnvestisiya Şirkətinə vaxtında verməməsi və ya tam şəkildə verməməsi nəticəsində İnvestisiya Şirkətinə dəymiş zərərə görə məsuliyyət daşıyır;

10.4. İnvestisiya Şirkəti Müştəri tərəfindən səhv, natamam və ya təhrif olunmuş məlumatın verilməsi nəticəsində Müştəriyə marja ticarəti xidmətlərinin göstərilməsi zamanı dəymiş ziyana görə məsuliyyət daşımır;

10.5. Tərəflərdən heç biri bir-birinin qarşısında hər hansı dolayı zərərlərə görə məsuliyyət daşımır;

10.6. Göstərilən marja ticarətixidmətləri çərçivəsində verilən sifarişlərin İnvestisiya Şirkətinin təqsiri olmadan icra edilməməsi İnvestisiya Şirkəti üçün məsuliyyət yaratmır;

10.7. Tərəflər razılığa gəlirlər ki, İnvestisiya Şirkətinin fəaliyyəti ilə məşğul olmasına hüquq verən lisenziyasının qüvvəsinin dayandırılması zamanı İnvestisiya Şirkəti tərəfindən Xidmətlərin göstərilməsi, Müştəri tərəfindən ona məxsus olan vəsaitlərin geri qaytarılması üçün müraciətin edilməsi halları istisna olmaqla, lisenziyanın tətbiqinin dayandırılması müddətində dayandırılmalıdır;

10.8. İnvestisiya Şirkəti elektron ticarət platformasında yaranan nasazlıqla, Müştəri tərəfindən internet əlaqəsində və ya müvafiq avadanlıqlarda yaranmış hallar ilə bağlı sifarişlərin verilməsində yaranan problemlərlə, Müştəri hesabından icazəsiz istifadə (habelə, onun tərəfindən üçüncü şəxslərin istifadəsi üçün şərait yaradıldıqda) və digər iradəsindən asılı olmayan səbəblərlə bağlı məsuliyyət daşımır;

10.9. Müştəri məlumatlarında qeyd olunmuş yanlış məlumat səbəbindən yaranmış zərər və ya ziyana görə məsuliyyət Müştərinin özünə aiddir;

10.10. İnvestisiya Şirkətimarja ticarəti xidmətinin təqdim edilməsi ilə əlaqədar əməkdaşlıq etdiyi şirkətlərin maliyyə problemləri, müflisləşməyi, əməliyyat səhvləri nəticəsində sifarişlərdə yaranan problemlərə görə məsuliyyət daşımır;

10.11. Müştəri bu Oferta üzrə tariflər üzrə ödəmələri və əlavə xərclərin ödənilməsini gecikdirdikdə, o, hər bir gecikdirilmiş gün üçün həmin haqqın və ya xərclərin 0,01 (sıfır tam yüzdə bir) faizi məbləğində dəbbə pulu ödəməlidir;

10.12. İnvestisiya Şirkəti bu Oferta ilə müəyyən edilmiş qaydada göndərilən məlumatların onun təqsiri olmadan çatdırılmamasına (düzgün çatdırılmamasına) görə məsuliyyət daşımır

## 11. Fors-Major

11.1. Tərəflər fors-major hallarına görə Oferta üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə məsuliyyət daşımırlar;

11.2. Fors-major hallarına "İnvestisiya Şirkəti" və "Müştəri" tərəfindən nəzarət edilməyən, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr, o cümlədən, müharibə, ictimai ixtişaş, yanğın, zəlzələ, vulkan, daşqın, tufan, epidemiya, epizotiya, dövlət və hökumət qərarları, maliyyə bazarlarının daxili normativləri və bu kimi digər hallar aid edilir;

11.3. Tərəflərdən hər hansı biri öhdəliklərindən hər hansı birini fors-major halı ilə bağlı olaraq icra edə bilmədikdə həmin Tərəf digər Tərəfi belə halların baş verdiyi gündən 5 (beş) təqvim günündən gec olmayaraq yazılı surətdə fors-major halı haqqında məlumatlandırmalı və fors-major halının nəticələrinin aradan qaldırılması ilə bağlı bütün ağlabatan tədbirləri görməlidir;

11.4. Fors-major halların baş verməsi barədə xəbərdar etməyən və ya vaxtı-vaxtında xəbərdar etməyən Tərəf bu Oferta üzrə öhdəliklərini icra edə bilmədikdə fors-major hallara istinad etmək hüququnu itirir;

11.5. Fors-major halları baş verdiyi gündən etibarən Oferta üzrə icra müddətinin axımı dayandırılır və axım bu hallar aradan qalxdıqdan sonra bərpa edilir;

11.6. Fors-major halı 15 (on beş) iş günündən artıq davam etdikdə, Tərəflərdən hər hansı biri digər Tərəfə yazılı bildiriş təqdim etməklə Tərəflər arasında bağlanmış müqaviləni ləğv edə bilər.

## 12. Mübahisələrin həlli üsulları

12.1. Oferta üzrə yaranan bütün mübahisələr, münaqişələr, fikir ayrılıqları və/və ya tələblər Tərəflər arasında danışıqlar yolu ilə həll edilir;

12.2. Danışıqlar yolu ilə nizama salınmayan mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində qeyd olunan vasitələr (pretenziya qaydası və mediasiya prosesində iştirak) və məhkəmə qaydasında həll edilir;

12.3. İnvestisiya Şirkətinin telefon, elektron vasitə (elektron poçt, İnternet, Ticarət Platforması və s.), və ya rəsmi bildirişlə müştəridən sifariş qəbul etdiyi hallarda İnvestisiya Şirkətinin bu əmrlərlə bağlı daxili uçot sistemindəki qeydləri və ya müştəriyə telefon, elektron məktub və digər formalarda göndərilən hesabat və bildirişləri İnvestisiya Şirkəti ilə Müştəri arasında yarana biləcək mübahisələrin həlli zamanı rəsmi sübut kimi istifadə olunacaqdır;

12.4. Müştəri ilə İnvestisiya Şirkəti arasında telefon, e-poçt və digər vasitələr üzərindən aparılan danışıq və yazışmalar gələcəkdə mübahisələrin həlli məqsədi ilə istifadə üçün tam hüquqi mahiyyət daşıyır;

12.5. Bu Oferta ilə əhatə olunmayan məsələlər Azərbaycan Respublikasında qüvvədə olan hüquqi aktlara əsasən tənzimlənir.

## 13. Yekun müddəalar

13.1. Müqavilə bağlandığı tarixdən etibarən 1 (bir) il müddətinə qüvvədədir. Müqavilənin müddətinin bitməsinə ən azı 10 (on) təqvim günü qalmışMüştəri İnvestisiya Şirkətinə müqavilə münasibətlərini davam etdirməmək istəyi barədə yazılı bildiriş təqdim etmədikdə, Müqavilə hər növbəti il üçün uzadılmış hesab olunur;

13.2. Müqavilə digər Tərəfi xitam verildiyi tarixdən ən azı 10 (on) təqvim günü əvvəl yazılı şəkildə xəbərdar etməklə Tərəflərdən hər hansı birinin təşəbbüsü ilə onun müddətinin bitməsinə qədər birtərəfli qaydada və məhkəmədən kənar ləğv edilə bilər. İnvestisiya Şirkətinin təşəbbüsü ilə Müqavilənin ləğvi səbəbləri göstərilməklə Müştəriyə yazılı bildiriş göndərilməklə həyata keçirilir;

13.3. İnvestisiya Şirkəti tərəfindən bu Ofertaya edilmiş əlavə və dəyişikliklər qanuni qüvvəyə minməsi tarixindən 3 (üç) iş günü öncə rəsmi internet səhifəsinə yerləşdirilir və Müştəri bu barədə müştəri məlumatlarında qeyd edilən e-poçt rabitə və ya sms bildiriş vasitəsi ilə məlumatlandırılır;

13.4. İnvestisiya Şirkəti tərəfindən bu Ofertaya birtərəfli qaydada edilmiş dəyişikliklərə dair Müştəri yazılı şəkildə etiraz bildirdiyi təqdirdə etirazın təqdim edildiyi tarixdən etibarən Tərəflər arasında bağlanmış müqavilə ləğv edilir;

13.5. Müqavilə qanuni qüvvəyə mindiyi tarixədək Tərəflərdən biri digər Tərəfi bu barədə xəbərdar etməklə Müqaviləni birtərəfli qaydada ləğv edə bilər;

13.6. Müqavilə üzrə əməliyyatlara dair qarşılıqlı öhdəliklər yerinə yetirildikdən, o cümlədən əlavə xərclər ödənildikdən sonra müqaviləyə xitam verilmiş hesab olunur;

13.7. İnvestisiya Şirkəti və Müştəri arasında bu Oferta ilə əhatə olunmayan və ya bu Ofertanı dəyişdirən münasibətlər Tərəflər arasında Xüsusi Razılaşmaların bağlanması ilə rəsmiləşdirilə bilər;

13.8. Bu Oferta İnvestisiya Şirkətinin rəsmi səhifəsində yerləşdirildiyi andan 3 (üç) iş günü sonra qanuni qüvvəyə minir;

13.9. Bu Oferta ilə tənzimlənməyən məsələlərdə Tərəflər qanunvericiliyi, o cümlədən Mərkəzi Bankın normativ hüquqi aktlarını rəhbər tuturlar;

13.10. Müştəri bu Ofertadan irəli gələn məsələlər üzrə Azərbaycan Respublikası Mərkəzi Bankının “(+994 12) 966” qaynar xətti vasitəsilə müraciət etmək hüququnu özündə saxlayır;

13.11. Qanunvericilikdə dəyişikliklər edildiyi halda bu Ofertaya əlavə və dəyişikliklər edilənədək bu Oferta qanunvericiliyə zidd olmayan hissədə qüvvədədir.

**1 saylı əlavə**

# ƏRİZƏ-ANKET№

{tarix}

| Adı, Soyadı, atasının adı: | | | |
|---|---|---|---|
| Şəxsi məlumatlar | | | |
| Vətəndaşlıq: | | Cinsi: | |
| Doğum yeri: | | Ailə vəziyyəti: | |
| Qeydiyyat ünvanı: | | Sənədin növü: | |
| | | Doğum tarixi: | |
| Seriya və №: | | FIN: | |
| Verən orqan: | | Verildiyi tarix: | |
| Əlaqə vasitələri: | | | |
| E-poçt: | | Mobil: | |
| Maliyyə məlumatları: | | | |
| Cəmi kapitalın dəyəri: | | İnvestisiya təcrübəsi: | |
| Səlahiyyətli şəxs: | | | |
| Əsas: | | Fin kod: | |
| Sənədin növü | | Doğulduğu yer: | |
| Seriya və № | | e-poçt: | |
| Verən orqan: | | Mobil nömrə: | |
| Verildiyi tarix: | | Ünvan: | |
| Son etibarlılıq tarixi: | | Faktiki ünvan: | |

Bu ərizəni imzalamaqla aşağıdakıları xahiş edirəm:

- İnvestisiya şirkətinin rəsmi internet səhifəsində (https://www.investaz.az) yerləşdirilmiş və qüvvədə olan Marja ticarət xidmətinin təqdim edilməsinə dair ofertanın (bundan sonra - Oferta) şərtlərinə uyğun mənə marja ticarət xidmətinin göstərilməsini;
- İnvestisiya şirkəti tərəfindən mənə Marja ticarət xidmətinin göstərilməsi üçün bu ərizənin təsdiq edilməsini;
- Marja ticarəti fəaliyyətinin həyata keçirilməsi üçün İnvestisiya şirkətinin daxili sistemində hesabın və şəxsi kabinetin açılmasını.

Bu ərizəni imzalamaqla aşağıdakıları qəbul edirəm:

- Ofertanın bütün şərtlərini, o cümlədən əlavələri ilə müəyyən edilən şərtləri;
- İnvestisiya Şirkətinə təqdim etdiyim məlumatların Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq toplanılmasının, saxlanılmasının, açıqlanmasının, eyniləşdirilməsinin və verifikasiyasının, o cümlədən bu məlumatların mübadiləsinin avtomatlaşdırılmış şəkildə həyata keçirilməsini;
- İnvestisiya şirkəti tərəfindən ofertanın şərtlərinə birtərəfli qaydada dəyişiklik və /və ya əlavələr etmək hüququnu (İnvestisiya Şirkəti bu cür dəyişikliklərin və/və ya əlavələrin qüvvəyyə minmə tarixindən ən azı 3 (üç) iş günü əvvəl ofertanın yeni redaksiyasını rəsmi internet səhifəsinə yerləşdirməli və bu barədə müştərini oferta ilə müəyyən edilmiş qaydada xəbərdar etməyə borcludur).

Bu ərizəni imzalamaqla aşağıdakıları təsdiq edirəm:

- İnvestisiya şirkətinə təqdim olunan məlumatların tamlığını və etibarlığını;
- Ofertanın bütün şərtləri oxuduğumu və mənə tam şəkildə aydın olmasını;
- ABŞ vergi rezidenti olmamağımı və hər hansı siyasi fəaliyyət ilə məşğul olmamağımı.

Bu ərizəni imzalamaqla aşağıda qeyd olulanları özöhdəmə götürürəm:

- Marja ticarəti fəaliyyətini həyata keçirərkən ofertanın şərtlərinə riayət etməyi;
- İnvestisiya Şirkətinə təqdim etdiyim məlumatda dəyişikliklər barədə dərhal İnvestisiya Şirkətinə məlumat verməyi;
- Üçüncü şəxslərin xeyrinə əməliyyatlar apardığım halda həmin şəxslərə dair qanunvericiliklə müəyyən edilmiş məlumatları eyniləşdirilməsi və verifikasiyası üçün İnvestisiya Şirkətinə təqdim etməyi;
- İnvestisiya Şirkətinin rəsmi internet səhifəsində yerləşdirilən məlumatlar ilə mütəmadi tanış olmağımı.

Müştəri: ______________________________ - (ad, soyad, ata adı)

**2 saylı əlavə**

# MARJA TİCARƏTİ ÜZRƏ RİSK MƏLUMATLANDIRMA SƏNƏDİ

Marja ticarəti nəticəsində mənfəət əldə edə biləcəyiniz kimi zərərə məruz qalmaq riskiniz də mövcuddur. Buna görə, ticarətə başlamadan əvvəl qarşılaşa biləcəyiniz riskləri tam anlamalı və onları nəzərə alaraq qərar verməyiniz zəruridir. Bu məqsədlə "Risk məlumatlandırma sənədi" marja ticarəti ilə məşğul olmaq istəyən bütün şəxslər tərəfindən oxunaraq imzalanmalıdır.

Azərbaycan Respublikasında marja ticarəti yalnız "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq lisenziyalaşdırılmış investisiya şirkətləri tərəfindən həyata keçirilə bilər. Lisenziyalaşdırılmış investisiya şirkətlərinin siyahısı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsindən (www.cbar.az) tanış ola bilərsiniz.

## MƏLUMATLANDIRMA

Marja ticarəti üzrə investisiya xidmətinin göstərilməsinə dair investisiya şirkəti ilə bağlanacaq müqavilədən əlavə olaraq aşağıdakı məlumatlarla tanış olmağınız tövsiyə olunur:

1. Investisiya şirkəti tərəfindən açılacaq marja hesablar və bu hesablarla aparılan bütün əməliyyatları "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi normativ xarakterli aktlara və digər hüquqi aktlara uyğun olaraq tənzimlənir.
2. Marja ticarəti riskli fəaliyyət növüdür. Kredit həddinin təsiri səbəbindən aşağı təminatla aparılan əməliyyatların bazarda sizin lehinizə olduğu kimi əleyhinizə də ola biləcəyi və buna görə də yüksək kredit həddinin sizə gəlir gətirə biləcəyi qədər zərərə də məruz qoya biləcəyi nəzərə alınmalıdır. Bazarda olan əks qiymət hərəkətləri nəticəsində investisiya şirkətinə yatırılan pul vəsaitlərinin itirilməsi riski mövcuddur.
3. Marja hesabları ilə əməliyyat apararkən müxtəlif mənbələrdən əldə edilmiş məlumatlar əsasında aparılmış təhlillər heç də həmişə gözlənilən nəticələr verməyə bilər.
4. Alqı-satqı əməliyyatlarında sizə təqdim edilən qiymətlər və spredlər (baza aktivinin alış qiyməti ilə satış qiyməti arasındakı fərq) ən yaxşı qiymət fərqini əks etdirməyə bilər. Bu məqsədlə onları digər investisiya şirkətlərinin təklif etdiyi qiymətlərlə müqayisə etməyiniz məqsədəuyğundur.
5. Ticarət əməliyyatlarına başlamadan əvvəl investisiya şirkətindən əməliyyatlarla bağlı tətbiq ediləcək xidmət haqları (komissiya) və fərq müqaviləsi roloveri barədə məlumat tələb edin. Həmin xərclər aydın bildirilmədikdə investisiya şirkətindən dəqiq, birmənalı başa düşülən məlumatı yazılı formada tələb etmək hüququna maliksiniz.
6. Marja ticarəti zamanı bazarlarda baş verən ani qiymət dəyişməsi səbəbindən yaranan qiymət sürüşmələri, eləcə də qiymət boşluqları (bazar şərtlərindən asılı olaraq, qiymətli kağız və ya fərq müqavilələri üzrə növbəti qiymətin bir neçə qiymət addımından sonra formalaşması nəticəsində qiymətlər arasında yaranmış boşluq) və onların doğuracağı risklər barədə ətraflı məlumatlandırmanı investisiya şirkətindən tələb edə bilərsiniz. Bu növ risklər müştərilərin ən çox qarşılaşdığı risklərə aid olub əhəmiyyətli itkilərə gətirib çıxara bilər.
7. Marja çağırışının hansı formada (platforma, mail və ya telefon vasitəsilə) ediləcəyi barədə məlumat alın. Sizə verilən məlumatların müqavilədə qeyd olunub-olunmadığını dəqiqləşdirin.

Bu sənəd marja ticarəti üzrə əməliyyatlara başlayarkən qarşılaşa biləcəyiniz ümumi risklər barədə sizi məlumatlandırmaq məqsədi daşıyır. Bu sənəd marja ticarətindən yaranan bütün riskləri əhatə etmir. Bu səbəbdən investisiyanızı bu növ əməliyyatlara yönəltmədən əvvəl bu sahəni ətraflı təhlil etməyiniz və investisiya şirkəti ilə bağlanılacaq müqaviləni diqqətlə oxumağınız tövsiyə edilir.

Aşağıda göstərilən müvafiq hissəni imzalamaqla müştəri marja ticarəti üzrə Risk məlumatlandırma sənədi ilə tanış olduğunu təsdiq edir.

Ərizə-Anket №

Adı, Soyadı, atasının adı: İMZA: ____________________

____________

Tarix:

**3 saylı əlavə**

“INVEST-AZ İnvestisiya Şirkəti” QSC

# ETİBARNAMƏ
(fiziki şəxslər üçün)

Bakı Şəhəri
{tarix}

| Şəxsi məlumatlar | Etibar edən(lər) cəmi 1 nəfər: | Etibar edilən(lər) cəmi 1 nəfər: |
|---|---|---|
| A.S.A.: | | |
| Ş/V- Seriya / № / FİN: | | |
| Verilmə Tarixi / Verən Orqan: | | |
| Qeydiyyat Ünvanı: | | |

Bu Etibarnamə üzrə Etibar edən şəxs olaraq mən, Etibar edilən şəxsə tərəfimdən məni təmsil etməsi üçün aşağıdakı səlahiyyətlərin verilməsini

ETİBAR EDİRƏM:

1. Marja Ticarəti xidmətinin göstərilməsi haqqında müqavilədən irəli gələn bütün səlahiyyətləri həyata keçirmək, __2023-ci il tarixli № ______________________, (bundan sonra - Müqavilə) Müqaviləsində nəzərdə tutulmuş hər hansı əməliyyatları həyata keçirmək hüququ daxil olmaqla, Etibar edənlə «İNVEST-AZ İnvestisiya Şirkəti» QSC arasında bağlanmış, Etibar edənə məxsus qiymətli kağızlar üzərində sərəncam vermək, mədaxil, məxaric, mübadilə kimi kassa əməliyyatlarını həyata keçirmək, pul vəsaitini almaq, Müqavilədə nəzərdə tutulan Etibar edənə məxsus hüquq və vəzifələrini həyata keçirmək məqsədi ilə tapşırıqlar (o cümlədən, əməliyyatların Etibar edənin hesabına qiymətli kağızların alınması və / və ya satılması üçün tapşırıqlar, pul vəsaitlərinin geri alınması tapşırıqları, qiymətli kağızların geri alınması üçün tapşırıqlar, müxtəlif ticarət sistemləri arasında pul vəsaitlərinin köçürülməsi üçün tapşırıqlar, habelə «İNVEST-AZ İnvestisiya Şirkəti» QSC-nin marja ticarəti xidmətlərinin göstərişləri ilə nəzərdə tutulmuş hər hansı digər qaydalar) və yuxarıda göstərilən Müqavilə üzrə səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri olan bütün sənədlər, hər hansı sənədi, arayışı, vəsiqəni almaq və təqdim etmək, ərizə vermək;
2. «İNVEST-AZ İnvestisiya Şirkəti» QSC-dən Müqaviləyə uyğun olaraq Etibar edənə xidmət göstərməsi ilə əlaqədar verdiyi hesabatları tələb etmək, almaq, təsdiq etmək və bu hesabatlara etirazlar bildirmək.

Etibar edilən(lər) bu səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı bütün zəruri faktiki və hüquqi hərəkətləri həyata keçirmək hüququna malikdir.

Bu Etibarnamə üzrə Etibar edilən(lər)ə verilən səlahiyyətlər 3 (üç) il müddətində qüvvədədir və üçüncü tərəfə ötürülə bilməz.

Müştəri: ______________________________________________ (A.S.A.)/
____________________/(imza)

**4 saylı əlavə**

# ŞƏHADƏTNAMƏ

"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC tərəfindən marja ticarətin təqdim edilməsinə dair Ofertaya qoşulma barədə

Hörmətli ____________________________________________ (ad, soyad, ata adı), sizin

____________ tarixli müraciətiniz əsasında Sizinlə "İNVEST-AZ İnvestisiya Şirkəti" QSC arasında marja ticarəti xidmətinin təqdim edilməsinə dair ______________tarixli __________________ nömrəli müqavilə bağlanmışdır.

Müştərinin eyniləşdirmə nömrəsi:
Müştərinin şəxsi hesabları:
Etibar edilən şəxslər:

"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC-nin rekvizitləri:

Lisenziya (nömrə və tarix): № 087986, 09.01.2016
VÖEN: 1800354501
Ünvan: Xətai rayonu, Fəzail Bayramov küç. 28F. InvestAZ Plaza
Telefon: +994 (12) 4880588 / *1234
email: elaqe@investaz.az
rəsmi internet səhifəsi: www.investaz.az

Səlahiyyətli şəxs __________________